# MÜBARİZ KEŞİKDƏ

23 may 2019-cu il
Cümə axşamı

№ 19 (3434)

1933-cü ildən çıxır

www.mk.mia.gov.az

Qiyməti 40 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

# PREZİDENT İLHAM ƏLİYEV MÜSƏLMAN ÖLKƏLƏRİNİN AZƏRBAYCANDAKI SƏFİRLƏRİNİ VƏ DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİNİN RƏHBƏRLƏRİNİ QƏBUL EDİB

Mayın 17-də Prezident İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul edib.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

Bildirilib ki, Müqəddəs Ramazan ayında bu cür görüşlər ənənəvi xarakter daşıyır. Azərbaycanla digər müsəlman ölkələrinin əlaqələri həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində inkişaf edir. BMT-də, İslam Əməkdaşlıq Təşkilatında bir-birimizə qarşılıqlı dəstək göstəririk. Bu qarşılıqlı dəstək əlaqələrin yüksək səviyyədə olmasının təzahürüdür. Xüsusilə, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı müsəlman ölkələrinin dəstəyi bizim üçün çox əhəmiyyətlidir. Baxmayaraq, beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı müxtəlif qərar və qətnamələr qəbul etmişlər, əfsuslar olsun ki, işğalçı dövlətə lazımi təzyiqi göstərmirlər. BMT Təhlükəsizlik Şurası – dünyanın ali orqanı 4 qətnamə qəbul edib və bu qətnamələrdə göstərilir ki, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmalıdır. Ancaq qətnamələr kağız üzərində qalıb və bu, ikili standartların



təzahürüdür. Bütün dünya Azərbaycanın ərazi bütövlüyünü tanıyır.

Dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan da öz növbəsində, beynəlxalq təşkilatlarda müsəlman ölkələrini daim dəstəkləyir, İslam həmrəyliyinin gücləndirilməsinə çox böyük əhəmiyyət verir və bu istiqamətdə əməli addımlar atılır. Azərbaycanda keçirilmiş çoxsaylı tədbirlər İslam həmrəyliyinin möhkəmlənməsinə xidmət göstərir. İslam həmrəyliyinin möhkəmlənməsi gündəlikdə duran əsas məsələlərdən biridir. Azərbaycan öz tərəfindən bu istiqamətdə çox ciddi addımlar atır və atacaqdır.

Ölkə rəhbərimiz deyib ki, Azərbaycanda mədəniyyətlərarası dialoqla bağlı çoxsaylı tədbirlər keçirilir. Bu yaxınlarda Bakıda keçirilmiş V Mədəniyyətlərarası Dialoq Forumu da bu sıradan olan tədbirlərdəndir. Azərbaycan İslam mədəniyyətini dünyada təbliğ etməklə bağlı çox böyük səylər göstərir. Bir çox ölkələrdə konfranslar, sərgilər, təqdimatlar keçirilir və beləliklə, İslamı dünyaya sülh, mərhəmət dini kimi təqdim edirik. Keçən il Naxçıvan – bizim qədim şəhərimiz İslam Mədəniyyətinin Paytaxtı elan edilmişdir. Bu qərara görə bütün müsəlman ölkələrinə minnətdarıq. İslam Əməkdaşlıq Təşkilatı da Azərbaycanın İslam həmrəyliyinin möhkəmlənməsində oynadığı rolu çox yüksək qiymətləndirir...

Sonra Fələstin Dövlətinin Azərbaycan Respublikasındakı səfiri Nasir Əbdül Kərim Əbdül Rəhim müsəlman ölkələrinin səfirləri və diplomatik missiyalarının rəhbərləri adından müqəddəs Ramazan ayı münasibətilə təbrikini çatdırıb.

Sonda xatirə şəkli çəkdirilib.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Mayın 15-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib. Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevi və Azərbaycan xalqını Ramazan ayı münasibətilə təbrik edib, dövlətimizin başçısına və xalqımıza firavanlıq arzularını çatdırıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib və öz növbəsində Rəcəb Tayyib Ərdoğanı və Türkiyə xalqını bayram münasibətilə təbrik edib, Türkiyə Prezidentinə və xalqına ən xoş arzularını çatdırıb.

Söhbət zamanı dövlət başçıları Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da bütün sahələrdə uğurla inkişaf edəcəyinə əmin olduqlarını bildiriblər.

***Mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ümumrusiya Bədii Gimnastika Federasiyasının prezidenti İrina Viner-Usmanova ilə görüşüblər.***

***Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında idman sahəsində əlaqələrin möhkəmləndirilməsində xidmətlərinə görə İrina Aleksandrovna Viner-Usmanova Prezident İlham Əliyevin sərəncamına əsasən, “Dostluq” ordeni ilə təltif edilib. Dövlətimizin başçısı ordeni İrina Viner-Usmanovaya təqdim edib.***

**Azərbaycan Prezidenti İlham Əliyev mayın 16-da Pirallahı Sənaye Parkında "Diamed" şpris istehsalı zavodunun açılış mərasimində iştirak edib.**

## PREZİDENT İLHAM ƏLİYEV XXV AZƏRBAYCAN BEYNƏLXALQ QİDA SƏNAYESİ VƏ XIII AZƏRBAYCAN BEYNƏLXALQ KƏND TƏSƏRRÜFATI SƏRGİLƏRİ İLƏ TANIŞ OLUB

Mayın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Ekspo Mərkəzində XXV Azərbaycan Beynəlxalq Qida Sənayesi - “WorldFood Azerbaijan” və XIII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı - “Caspian Agro” sərgiləri ilə tanış olub.

Kənd Təsərrüfatı naziri İnam Kərimov və “Caspian Event Organisers” şirkətinin regional direktoru Edvard Straxan dövlətimizin başçısına sərgilərlə bağlı məlumat veriblər.

Bildirilib ki, “WorldFood Azerbaijan” və “Caspian Agro” sərgilərində Azərbaycanla yanaşı, Litva, Rusiya, Sloveniya, Ukrayna, Xorvatiya və digər ölkələri təmsil edən şirkətlər də yer alır. Bu il İtaliya, Türkiyə və Şri-Lanka sərgidə milli stendlərlə çıxış edir. Ənənəvi olaraq, sərgidə Rusiyanın Başqırdıstan, Penza, Voronij, Vladimir, Kabarda-Balkar kimi regional qrupları da iştirak edir. Bu il sahəsi genişlənmiş Belarus Respublikasının milli stendinin ekspozisiyası iki zalda - ikinci və sərginin tarixində ilk dəfə açılmış üçüncü zalda təqdim olunur. Burada, eyni zamanda, qida sənayesi sahəsində fəaliyyət göstərən startaplar, mikro və kiçik sahibkarlıq subyektləri öz məhsul və xidmətlərini təqdim edirlər. Gürcüstan və Niderland Krallığı sərgidə milli qruplarla təmsil olunur.

Prezident İlham Əliyevə Aqrar Məşğulluğun Artırılması Layihəsi barədə də məlumat verilib.

Dövlətimizin başçısı sərgidə “Azersun”, “Grow Group Azərbaycan”, CASE, “Grimme”, “Agro Dairy”, CLAAS, “John Deer”, “Rostselmaş”, “Cahan Tobacco”, “Lindsay”, “Geoflow”, METAK, GİLAN, İMAGRO, “Agronaft”, “Prior Leasing” şirkətlərinin, Gəncə avtomobil zavodunun, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin, Kənd Təsərrüfatı Nazirliyinin, Rusiya Federasiyasının Başqırdıstan Respublikasının, Belarusun, İtaliyanın, Türkiyənin, Niderlandın, Gürcüstanın stendləri ilə tanış olub.

Azərbaycan Prezidenti İlham Əliyev “WorldFood Azerbaijan” və “Caspian Agro” sərgilərinin işinə uğurlar arzulayıb.

**Mayın 21-də Azərbaycan Prezidenti İlham Əliyev Sabunçu dəmir yolu vağzalı kompleksinin açılışında iştirak edib, yeni inşa edilən Bakı sərnişin – Sabunçu dəmir yolu xətti üzrə görülən işlərlə tanış olub.**

***Mayın 21-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Bakının Sabunçu rayonundakı Hüseynbala Ağaverdiyev adına 113 saylı tam orta məktəbə baş çəkiblər. Sonra onlar Kürdəxanı qəsəbəsinin sakini Telman Əliyevin evində qonaq olublar.***

**Dövlətimizin başçısı mayın 16-da “Daimi dövlət qulluğuna qəbul edilən şəxslə bağlanılan əmək müqaviləsinin nümunəsi”nin təsdiq edilməsi haqqında fərman imzalayıb.**

❖❖❖❖❖

***Mayın 16-da Azərbaycan Prezidenti İlham Əliyev milli bayram münasibətilə Kamerun Respublikasının Prezidenti zati-aliləri cənab Pol Biyaya təbrik məktubu göndərib.***

❖❖❖❖❖

**Dövlətimizin başçısı mayın 16-da rəqs sənətinin inkişafı və təbliğindəki xidmətlərinə görə Roza İsmayıl qızı Cəlilovanın “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Mayın 16-da ölkəmizin rəhbəri Çex Respublikası Parlamentinin Deputatlar Palatasının sədri Radek Vondraçekin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev mayın 17-də Nazim Mehdi oğlu İsmayılovun Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilərək Saatlı Rayon İcra Hakimiyyətinin başçısı, Siraqəddin Nəcəf oğlu Cabbarovun Saatlı Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilərək Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı təyin olunmaları haqqında sərəncamlar imzalayıb.**

❖❖❖❖❖

***Ölkəmizin rəhbəri mayın 17-də Azərbaycan musiqi sənətinin görkəmli nümayəndəsi, böyük bəstəkar, SSRİ Xalq artisti, Dövlət mükafatı laureatı, akademik Arif Cahangir oğlu Məlikovun xatirəsinin əbədiləşdirilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Mayın 18-də Azərbaycan Prezidenti İlham Əliyev Hüseyn İbrahimovun 100 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Mayın 18-də dövlətimizin başçısı Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Taleh Azay oğlu Qaraşovun 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Mayın 21-də Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Federasiyası Elmlər Akademiyasının prezidenti Aleksandr Sergeyevi qəbul edib.**

## MİLLİ ZƏFƏR İFTİXAR

1918-ci il 28 May Azərbaycan Xalq Cümhuriyyətinin doğulduğu gün kimi xalqımızın çoxəsrlik tarixinə qızıl hərflərlə yazıldı. Bu gün xalqımızın ən əziz bayramlarından olmaqla, həm də milli zəfər, milli iftixar günümüzdür...

## DİN-in MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Kütləvi informasiya vasitələrində öncədən verilmiş elanlara uyğun olaraq, Daxili İşlər naziri, general-polkovnik Ramil Usubov mayın 18-də DİN-in Daxili Qoşunlarının Qəbələ rayonunda yerləşən hərbi hissəsində respublikanın Şirvan və Şimal-Qərb zonalarının ərazi polis orqanlarında, mayın 21-də Əlahiddə Çevik Polis Alayında isə Bakı şəhər Baş Polis İdarəsinin tabeli qurumlarında və Sumqayıt, Abşeron şəhər, rayon polis idarələrində vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin sıra baxışlarını keçirib...

*Bax səh.2.*

# DİN-in MƏTBUAT XİDMƏTİNİN MƏLUMATLARI

**DİN-in "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində Daxili İşlər naziri, general-polkovnik Ramil Usubovun iştirakı ilə A.Heydərov adına Sıravi və Kiçik Rəis Heyəti Hazırlayan Məktəbin müəllim-komandir heyəti, növbəti tədris kursunun məzunları və xidmətə yeni qəbul olunmuş dinləyicilər ilə görüş keçirilib.**

**Tədbirdə çıxış edən nazir ölkə Prezidenti cənab İlham Əliyevin gənc kadrların hazırlanması və irəli çəkilməsi işinə hər zaman xüsusi önəm verdiyini, nitq və çıxışlarında bunun gələcəyimizi şərtləndirən**





**mühüm amil olduğunu vurğuladığını xatırladıb, hazırkı tədbiri də bu istiqamətdə həyata keçirilən məqsədyönlü siyasətin növbəti təzahürü kimi dəyərləndirib.**

Daha sonra nazir müstəqilliyin ilk illərində cərəyan edən gərgin ictimai-siyasi proseslər, ölkədə yaranmış vətəndaş qarşıdurması, Ermənistanın təcavüzü, partiya mənsubiyyətinə, şəxsi münasibətlərinə görə daxili işlər orqanlarına çoxsaylı təsadüfi, səriştəsiz insanların qəbul edilməsi, kriminogen durumun nəzarətdən çıxması barədə danışıb, xalqın təkidilə ulu öndər Heydər Əliyevin ali hakimiyyətə qayıdışından sonra cəmiyyət həyatının bütün sahələrində, o cümlədən hüquq-mühafizə fəaliyyətində də köklü hüquqi-demokratik islahatların həyata keçirildiyini, qanunvericilik bazasının yaradıldığını, cinayətkarlıqla qətiyyətli mübarizənin əsasının qoyulduğunu, sabitliyin bərqərar edildiyini diqqətə çatdırıb. General-polkovnik R.Usubov bildirib ki, bu siyasət indi ölkə Prezidentinin rəhbərliyi ilə uğurla davam etdirilir, Daxili İşlər Nazirliyi sistemində də fəaliyyətin beynəlxalq standartlar səviyyəsində qurulması üçün ardıcıl, məqsədyönlü addımlar atılır.

**Daxili İşlər naziri gənc polis əməkdaşlarını təbrik edərək çətin və şərəfli peşələrində uğurlar arzulayıb, daim öz üzərlərində işləmələrini, müasir informasiya texnologiyalarına yiyələnmələrini, vətəndaşların qanunla qorunan hüquq və mənafelərinin keşiyində möhkəm dayanmalarını, peşəkar həmkarlarının təcrübəsindən bacarıqla yararlanmalarını tövsiyə edib.**

*22 may 2019-cu il*

**Kütləvi informasiya vasitələrində öncədən verilmiş elanlara uyğun olaraq, Daxili İşlər naziri, general-polkovnik Ramil Usubov mayın 18-də DİN-in Daxili Qoşunlarının Qəbələ rayonunda yerləşən hərbi hissəsində respublikanın Şirvan və Şimal-Qərb zonalarının ərazi polis orqanlarında, mayın 21-də Əlahiddə Çevik Polis Alayında isə Bakı şəhər Baş Polis İdarəsinin tabeli qurumlarında və Sumqayıt, Abşeron şəhər, rayon polis idarələrində vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin sıra baxışlarını keçirib.**

Nazirliyin aidiyyatı baş idarə və şəhər, rayon polis şöbələri rəislərinin də iştirak etdikləri hər iki sıra baxışında paytaxt və həmin bölgələrdə yaşayan, Post-Patrul Xidmətinin polis nəfəri vəzifələrində xidmət etmək istəyən ümumilikdə 563 şəxs iştirak edib. Nazir ayrı-ayrılıqda hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə maraqlanıb. Ümumən, iddiaçıların arasından daha hazırlıqlı olan 361 nəfər seçilərək onların daxili işlər orqanlarında xidmətə qəbul olunmaları üçün müvafiq tapşırıqlar verilib.

Namizədlər qarşısında çıxış edən nazir son illər daxili işlər orqanlarında xidmətə qəbulun şəffaflıq, aşkarlıq və ədalət prinsipləri əsasında gerçəkləşdiyini vurğulayıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin mükəmməl təhsilli, yüksək mənəvi və işgüzar keyfiyyətlərə, hərtərəfli dünyagörüşə malik gənclərin hər zaman dövlət idarəçiliyində daha geniş şəkildə təmsil olunmaları, o cümlədən daxili işlər orqanlarında xidmətdə irəli çəkilmələri üçün tövsiyə və tapşırıqlarını xatırladan nazir, bu istiqamətdə hər zaman zəruri addımların atıldığını, hazırkı seçimlərin də göstərilən sahədə uzun müddətdir həyata keçirilən məqsədyönlü siyasətin növbəti əyani təzahürü olduğunu bildirib.




Qeyd olunub ki, ümumilikdə, kadrların hazırlıq səviyyəsinin artırılması, gənc əməkdaşlara lazımi diqqət və qayğı göstərilməsi ölkə və DİN rəhbərliyinin fəaliyyətində prioritet istiqamətlərdən və daim nəzarətdə saxlanılan məsələlərdəndir.

Nazir R.Usubov xidmətə qəbul üçün seçilən gəncləri təbrik edərək onlara öz tövsiyələrini verib, gələcək xidməti fəaliyyətlərində uğurlar arzulayıb.

*21 may 2019-cu il*

# MİLLİ ZƏFƏR İFTİXAR

**1918-ci il 28 May Azərbaycan Xalq Cümhuriyyətinin doğulduğu gün kimi xalqımızın çoxəsrlik tarixinə qızıl hərflərlə yazıldı. Bu gün xalqımızın ən əziz bayramlarından olmaqla, həm də milli zəfər, milli iftixar günümüzdür.**

Azərbaycanın zəngin torpaqları və təbii sərvətləri tarixlər boyu düşmənlərin diqqətini cəlb edib. Bu isə zaman-zaman azadlığımıza təcavüzlərlə nəticələnib. Xalqımız heç vaxt bununla barışmayıb, gizli-aşkar mübarizəsini davam etdirib. Sovet Rusiyasının hərbi müdaxiləsi ilə Şimali Azərbaycan yenidən Rusiyanın tərkibinə qatılsa da, Xalq Cümhuriyyəti xalqımızın azadlıq hərəkatını yenidən canlandırıb. O, eyni zamanda bütün Şərqdə, o cümlədən türk-islam dünyasında ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi idi.

Təəssüflər olsun ki, müstəqillik qazanmış xalq azadlığın şirinliyini uzun müddət dada bilmədi. Azərbaycan Xalq Cümhuriyyətinin idarə edilməsində buraxılan səhvlər, daxildə milli birliyin əldə edilməməsi, xəyanətlər, qonşuların fitnəkarlığı onun yaşamasına imkan vermədi. Xalq Cümhuriyyəti 1920-ci ilin aprelində bolşevizmin açıq təcavüzü ilə süquta uğradı. Cəmi 23 ay yaşamasına baxmayaraq, xalqımız azadlıq ideallarına, müstəqil dövlətçilik ənənələrinə sadiqliyini sübut etdi.

Milliyyətindən, siyasi mənsubiyyətindən və dini etiqadından asılı olmayaraq, bütün vətəndaşların hüquqlarını, hürriyyətini tanıması Avropaya nümunə olası örnək idi. Dövlət sərhədlərinin müəyyən edilməsi, dövlətçilik atributlarının qəbulu, ana dilimizin dövlət dili elan olunması, bununla yanaşı, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə və hərbi quruculuq sahəsində atılmış addımlar Azərbaycanın gələcək müstəqilliyi üçün möhkəm zəmin yaratdı.

Sonra Sovet İmperiyasının 70 illik dövrü başlandı. Lakin xalqımız öz müstəqilliyi uğrunda mübarizəni davam etdirdi. Bu mübarizədə şəhidlər verdi.

1991-ci il oktyabrın 18-də "Azərbaycanın dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbul edilməsi ilə xalqımız yenidən öz istiqlalına qovuşdu. Amma ölkəmizin ədalətsiz müharibəyə sürüklənməsi, torpaqlarımızın işğalı, daxili çəkişmələr, dərin sosial-iqtisadi böhran, hakimiyyət çevrilişləri, vətəndaş qarşıdurması müstəqilliyimizin ilk illərində fəlakətli vəziyyət yaratdı. Yalnız 1993-cü ilin iyununda ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıtmasından və dövlətçiliyimizin sükanını öz qüdrətli əllərinə almasından sonra mənzərə dəyişdi.

Bu gün biz qüdrətli hərtərəfli inkişafın sürəti ilə dünyada seçilən demokratik, müstəqil Azərbaycan Respublikasının vətəndaşlarıyıq.

Damarlarında azərbaycanlı qanı axan, qəlbi Vətənlə döyünən insan üçün bundan böyük xoşbəxtlik yoxdur.

***Ruhiyyə Əliyeva,***
***polis baş leytenantı***

# VƏTƏN DAŞI, DAŞ YADDAŞI

**"Muzey" yunan sözü olub, "muzalar məbədi" deməkdir. Muzalar qədim yunan mifologiyasında incəsənət və elm ilahələri hesab olunurdu. Sonralar maddi və mənəvi mədəniyyət abidələrini komplektləşdirən, saxlayan, nümayiş etdirən, tədqiq və təbliğ edən elmi müəssisələr muzey adlandırılmışdır.**

Dünyada ilk muzey Ellin dövründə qədim Misirin paytaxtı İsgəndəriyyə şəhərində yaradılmışdır.

Ölkəmizdə də muzey işinin qədim tarixi var.




Azərbaycan hökmdarlarının saraylarında, məbədlərdə, həmçinin digər tikililərdə mədəniyyət tariximizin ən müxtəlif dövrlərinə aid qiymətli əşyalar və sənət nümunələri mühafizə olunmuşdur. Tarixi və bədii əhəmiyyət daşıyan eksponatların mühüm bir qismi sonrakı dövrlərdə əsas etibarilə şəxsi kolleksiyalarda qorunub-saxlanmışdır. Eyni zamanda, tarixən reginonda baş vermiş geosiyasi hadisələr nəticəsində Azərbaycan mədəniyyətinin bir çox unikal nümunələri yüksək estetik dəyərlərə malik əsl sənət möcüzələri dünyanın məşhur muzeylərinə aparılmışdır. XIX əsrin ikinci yarısından etibarən Azərbaycanın ictimai-siyasi və mədəni fikir həyatında sürətlə cərəyan edən proseslər öz növbəsində muzey işinin təşkilinə təkan vermiş və ölkəmizdə müasir tipli muzeylərin yaradılmasına başlanmışdır. İlk belə muzeylərdən biri maarifpərvər yazıçı C.Məmmədquluzadənin təşəbbüsü və yaxından iştirakı ilə XIX əsrin sonlarında təşkil olunmuşdur.

Torpaqlarımızın işğalı muzeylərimizin də talanması, mənimsənilməsi ilə nəticələndi. Biz neçə minillik tarixi abidələri, eksponatları, xalq sənətkarlarının yaratdığı sənət nümunələrimizi itirdik. Azərbaycan xalqının tarixi və mədəniyyəti ilə bağlı qiymətli əşyalar, rəsm və heykəltaraşlıq əsərləri, dünya şöhrətli Azərbaycan xalçaları düşmən tərəfindən mənimsənildi. Talan edilmiş muzeylərdən 100 mindən çox qiymətli əşya və nadir eksponat oğurlanıb.

Azərbaycan torpaqlarında mədəni irsin məhv edilməsinə, qədim tarixinə kölgə salmaq, izlərini silmək üçün erməni vandalları 5 minə yaxın eksponatı olan Şuşa Tarix muzeyini, Azərbaycan xalçası və Xalq Tətbiqi Sənəti Dövlət muzeyi Şuşa filialını, 100-dək əşyası olan Dövlət Qarabağ Tarix muzeyini, Kəlbəcər, Zəngilan, Laçın, Qubadlı, Ağdam, Cəbrayıl, Füzuli, Xocalı rayonlarının Tarix Diyarşünaslıq muzeylərinin eksponatlarını talan etmiş, Daş heykəllər muzeyi yerlə-yeksan olunmuşdur.

***18 may Beynəlxalq Muzeylər Günü idi...***

***Aytəkin Nəcəfova,***
***polis polkovnik-leytenantı***

# HÜQUQLAR QORUNUR, DƏYƏRLƏRƏ HÖRMƏTLƏ YANAŞILIR

**"İnsan hüquqlarının qorunması bəşəriyyətin can atdığı ali ideallardandır. Dövlət və cəmiyyət tərəfindən pozula bilməyən sabit insan və vətəndaş hüquqlarının təşkili və təmini həmin cəmiyyətdə demokratiyanın, sivil dəyərlərin əsas göstəricilərindən biridir. Bu sahədə əhəmiyyətinə görə ən mühüm sənəd BMT Baş Məclisinin 1948-ci ildə qəbul etdiyi "İnsan hüquqları Bəyannaməsi"dir. 1941-1945-ci illər müharibəsindən sonra qəbul edilmiş bəyannamədə insan hüquqlarının toxunulmazlığı başlıca prinsip kimi önə çəkilir".**

Bu fikirlər Qubadlı RPŞ-nin təşkilatçılığı ilə rayonun Sumqayıtda məskunlaşan Mirağa Əliyev adına Hal kənd orta məktəbində insan hüquqları aylığı çərçivəsində keçirilən tədbirdə səsləndi.



RPŞ rəisinin şəxsi heyətlə iş üzrə köməkçisi, polis mayoru Tural Namazov bildirdi ki, xalqımız insan hüquq və azadlıqları kimi yüksək dəyərləri qoruyub-saxlamaqla yanaşı, həm də multikultural ənənələrə sadiqliyini nümayiş etdirmişdir. Azərbaycan bütün beynəlxaq təşkilatların fəal üzvü olmaqla insan hüquq və azadlıqlarını qoruyan sazişlərə, konvensiyalara qoşulub. Bununla da gənc dövlətimiz öz sülhsevər mövqeyini, dilindən, dinindən, irqindən asılı olmayaraq, bütün insanların hüquqlarının qorunduğu ölkə olduğunu dünyaya bəyan edib. Ölüm hökmünün Şərqdə ilk dəfə Azərbaycanda ləğv edilməsi də insan hüquq və azadlıqlarına, humanizm prinsiplərinə onun sadiqliyini bir daha təsdiqləyir. İnsan hüquqlarının müdafiəsi üçün ölkədə güclü hüquqi baza yaradılıb, işlək mexanizmi təkmilləşdirilir.

Rəisin xidmət üzrə müavini, polis polkovnik-leytenantı İlham Rəsulov qeyd etdi ki, hələ o zaman beynəlxalq təşkilatların qapısını kəsdirib, utanmadan ölkədə insan hüquqlarının pozulmasından dəm vuran üzdəniraq "demokratiya fədailəri", "insan hüquqlarının cəfakeşləri" ölüm hökmünün ləğvindən sonra kriminogen durumun gərginləşəcəyini, cinayətkarlığın tüğyan edəcəyini car çəkirdilər. Amma ulu öndərin insanpərvər addımları bütün bu deyilənlərin populizmdən başqa bir şey olmadığını göstərdi. Bu sahədə keçirilən tədbirlər, əldə olunan nailiyyətlər ümummilli liderimizin bir daha haqlı olduğunu təsdiq etdi. Əksinə, ağır cinayətlərin sayı daha da azaldı, kriminogen durum nəzarətdə saxlanıldı, müstəqil dövlətimizin demokratik, humanist imici bütün dünyaya məlum oldu.

Məktəbin direktoru Sərvər Alırzayev, direktor müavini Səidə Paşayeva, polis leytenantı Rauf Qələndərov və digər çıxış edənlər "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərmandan sonra "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nın təsdiqlənməsini ölkəmizin mövcud sahəyə verilən önəmin bariz nümunəsi olduğunu qeyd etdilər.

***Hafiz Təmirov,***
***polis mayoru***




# COCUQ MƏRCANLIDAN "BÖYÜK QƏLƏBƏ"YƏ

**Saytların birində "Avropa Liqasının kuboku Cocuq Mərcanlıda" sərlövhəli xəbəri oxudum. Həmin an keçirdiyim hissi, həyəcanı sözlə ifadə etməkdə çətinlik çəkirəm.**

Bu bizim üçün gerçəkləşməsi imkansız və əlçatmaz olan xəyallardan idi. Ancaq xəyalları, arzuları gerçəkliyə çevirməyi bacaran sabitlik adası, "El bir olsa, dağ oynadar yerindən..." deyə Vətən 26 ildə əldə etdiyi nailiyyətlər sırasına daha birini əlavə etdi.

Vurğulamaq istədiyim məqam idman uğurumuz deyil. İdman uğurları artıq gündəlik həyatımızın gerçəkliyinə çevrilib və bu gün idman dedikdə ilk ağıla gələn ölkələrdən biri məhz Azərbaycandır. Diqqəti yönəltmək istədiyim məqam möhtəşəmliyi ilə göz oxşayan qalibiyyət kubokunun məhz Cocuq Mərcanlıda olmasıdır. Elə bu kubok da o "böyük qələbə"nin Cocuq Mərcanlıdan başlanmasına, zəfərin elə də uzaqda olmadığına işarədir...

Məlumat üçün bildirək ki, kubok turu Cenevrədən başlayaraq, Sevilya, Berlin, London, Milan, Moskva və Parisi ziyarət edərək Azərbaycanın paytaxtı - Bakı şəhərinə təhvil verilib.

UEFA Avropa Liqasının final oyunu mayın 29-da Bakı Olimpiya Stadionunda keçiriləcək, bilirsiniz...

*T.Əlizadə,*
*polis kapitanı*

# "SEÇİMİMİZ SAĞLAM HƏYATDIR"

**Sabunçu Rayon Polis İdarəsinin təşkilatçılığı ilə bu mövzuda keçirilən tədbirin ünvanı Maştağadakı 28 saylı orta məktəb idi.**

Narkomaniyanın dəhşətlərindən bəhs edən videoçarx nümayiş olunduqdan sonra məktəbin direktoru Qənirə Əmircanova bəşəriyyətin gələcəyi üçün ən dəhşətli bəla olan narkomaniyayla mübarizədə



yalnız dövlətin deyil, eləcə də cəmiyyətin hər bir üzvünün fəal rol oynamasının zəruriliyini diqqətə çatdırıb. Deyib ki, bu gün gənclərimizi "ağ ölüm"ün ağuşundan almaq, ona düçar olanları sağlam həyata qaytarmaq üçün üzərimizə düşən vəzifənin öhdəsindən layiqincə gəlməliyik.

Sabunçu Rayon İcra Hakimiyyətinin nümayəndəsi Ədalət Teymurov ölkəmizin qazandığı iqtisadi və siyasi uğurların əldə olunmasında gənclərin də rolunu xüsusi qiymətləndirib.

Qeyd olunub ki, gənclərə göstərilən diqqət və qayğı dövlət siyasətinin prioritetidir. Məhz bu səbəbdəndir ki, sağlam və savadlı gəncliyin formalaşması üçün təkcə paytaxtımızda deyil, regionlarda da işlər görülmüşdür. Gənclərin asudə vaxtlarını səmərəli keçirməsi üçün Olimpiya idman kompleksləri, gənclər evləri tikilib və istifadəyə verilib.

Sabunçu RPİ-nin rəisi, polis polkovniki Eldar İlyasov bildirib ki, narkotik maddə alverçiləri uşaqların və gənclərin cəmləşdiyi yerlərdə də olur, pul qazanmaq xatirinə həmin məhsulları təklif etməklə, onları ölümə aparan bu pis vərdişə alışdırmağa çalışırlar. Pulunu da əvvəlcədən yox, çox vaxt onları bu ağır xəstəliyə düçar etdikdən sonra istəyirlər. Təzə narkoman maddi cəhətdən imkansız olduğundan xərci ödəmək və yeni narkotik maddə almaq üçün hətta oğurluq yoluna



qədəm qoymaq məcburiyyətində qalır.

"Narkomanlar potensial cinayətkarlar və ən qorxulu infeksion xəstəlik daşıyıcılarıdır." Bu fikirləri həkim-narkoloq Məmmədəli Baxışov söyləyib.

Tədbirdə çıxış edənlər narkomaniya ilə yanaşı bu gün cəmiyyətimizi narahat edən daha bir neçə problemdən-erkən nikahlardan, dini radikalizmdən də bəhs ediblər və gənclərimizi ayıq-sayıq olmağa çağırıblar.

*H.Təmirov,*
*polis mayoru*

# XÜLYALAR VƏ GERÇƏKLƏR

*Əvvəli ötən saylarımızda.*

Ölkəmizin, hakimiyyətin növbəti nailiyyətinə, parlaq uğuruna sevinmək iqtidarında olmayanlar, cığallıqlarından, qərəzkarlıqlarından və yersiz təkəbbürlüklərindən tərəfdaşları arasında da hər zaman problemlər yaşayanlar indi dövlət mənsublarını şöhrətpərəstlikdə, guya vətəndaşları saya almamaqda günahlandırırlar. Tarixin ironiyasına baxın: vaxtilə liderlərinə, prinsiplərinə, əqidə yoldaşlarına xəyanət edənlərin, ortabab idman meydançasını doldurmaqda acizlik çəkənlərin gözlərini paxıllıq, xudpəsəndlik, qəflət elə bağlayıb ki, onlar sərbəst toplaşmaq azadlığını bir dəyər olaraq hörmətdən, urvatdan saldıqları rışların, kütləvi tədbirlərin keçirildiyi, yaxud gözlənilən növbəti siyasi, diplomatik uğurlar qazanacağımız ərəfəsində beynəlxalq təşkilatlara ölkəmizdə guya demokratik azadlıqların azlığı, insan hüquqlarının pozulması barədə dezinformasiyalar göndərir, respublikamız barədə yanlış ictimai rəy formalaşdırmağa çalışırlar.

Ancaq onlar bilməmiş deyillər və son ayların təcrübəsi göstərir ki, dünyanın ən inkişaf etmiş dövlətlərində də polis asayişi mühafizə funksiyalarını yerinə yetirərək istənilən qanunsuz aksiyanın qarşısını da alır, ictimai qaydanı kobud şəkildə pozan, tabeçilik göstərməyən şəxslərə qarşı fiziki güc də tətbiq edir. Və bu zaman normal düşüncə, məntiq sahibi olan hər hansı ictimai və ya siyasi təşkilat nümayəndəsi polisi öz vəzifə borcunu yerinə yetirdiyinə görə qınamır, məzəmmət obyektinə çevirmir. Hələ biz onu demirik ki, ara-sıra Avropa ölkələrindən, məsələn demokratik azadlıqların ayaq açdığı, "sarı jiletlilər"in timsalında Paris şəhərindən də yan keçməyən kütləvi etiraz aksiyalarının, müxtəlif tətillərin qarşısının alınması bəzən asayiş keşikçiləri ilə nümayişçilər arasında şiddətli qarşıdurmalarla da müşayiət olunur. Bu kontekstdə konkret olaraq, Şimali Afrikada və Yaxın Şərqin bəzi dövlətlərində qırğınlarla, böyük dağıntılarla və hakimiyyətin zorla dəyişdirilməsi ilə nəticələnən məlum proseslərin sonda həmin ölkələrin xalqları üçün nə ilə yekunlaşdığı, onlara hansı sürprizlər bəxş etdiyini görməmək mümkün deyil. Necə deyərlər, zaman ən böyük və ədalətli hakimdir!

Belələrinə qısa bir xatırlatma yerinə düşərdi. Əvvəla, həm siyasi, həm sosial-iqtisadi, həm də demokratik islahatların uğurla həyata keçirildiyi, dünyanın inkişaf edən ölkələri sırasına çıxmaqda olan Azərbaycanı hər hansı bir Şərq, yaxud Qərb dövləti ilə müqayisə etməyin, ölkəmizdə inqilab, üsyan, yaxud vətəndaş müharibəsi üçün münbit şərait olduğunu düşünməyin özü, ən azından qərəzli yanaşmadır. Azərbaycan vətəndaş müharibəsini də görüb, çevriliş cəhdlərini də, ümummilli liderimizin müdrikliyi, ölkə Prezidentinin dərin zəkası, qətiyyəti və uzaqgörənliyi sayəsində qansız-qadasız ən demokratik islahatları və inkişafı da. Gənc respublikamız dünyanın demokratik, sivil, hüquqi dövlətlərindən biri kimi bütün bu sayaq problemləri keçmişdə qoyub və indi bizim üçün yalnız bir düşmən, bir müharibə cəbhəsi var.

bəs deyilmiş kimi, tam üç gün ərzində dünyanın xəbər, idman gündəmini zəbt etmiş əfsanəvi bir yarışla özlərinin miskin mitinqçilik azarları, mənasız məşğuliyyətləri arasında anologiya da aparırlar.

Yeri gəlmişkən, daxili işlər orqanlarının şəxsi heyəti Formula-1 kimi mötəbər beynəlxalq idman yarışı günlərində ictimai asayişin və daxili təhlükəsizliyin etibarlı qorunmasını, planlaşdırılan tədbirləri yüksək səviyyədə həyata keçirib.

İyirmi yeddi il əvvəl hakimiyyətə gəlib ölkəni vətəndaş müharibəsi təhlükəsi, dağılmış iqtisadiyyat və cinayətkarlığın tüğyan etməsi ilə üzbəüz qoymuş, indi Milli Şura və ya Azərbaycan Xalq Hərəkatı kimi qondarma qurumlarda təmsil olunan köhnə tanış simalar indi də xarici havadarlarından aldıqları təlimatlara və sifarişlərə uyğun olaraq, mötəbər ya-

Əməkdaşlarımız və hərbi qulluqçularımız ölkəmizin suverenliyi, ərazi bütövlüyü uğrunda fədakarlıq göstərib bu yolda qurbanlar verməklə yanaşı, sabitliyin dönməzliyinin təminində, əmin-amanlığın qorunmasında, qanunsuz aksiyaların qarşısının alınmasında hər zaman öz sözlərini demişlər və bundan sonra da deyəcəklər...

*M.Orxan*

# XÜSUSİ TƏYİNATLI "GÜCLÜLƏR"

**Xüsusi təyinatlılar bir ölkənin elitar hərbi dəstəsi və yaxşıların-yaxşısı hesab olunurlar. Böyükdən-kiçiyə hamı onların təlim-məşq toplanışlarını, döyüş hazırlıq dərəcələrini maraqla izləyir və onlar məxsus olduqları dövlətin gücü kimi simvolizə edilirlər. Aşağıda adları qeyd olunan xüsusi təyinatlılar döyüş qabiliyyətinə görə sivil dünyada sözünü demiş və təcrübəsinə görə ən seçilənlərdəndir.**



**"Sayeret Matkal"** - İsrailin bu elitar dəstəsi xaricində kəşfiyyat, ölkə daxilində terrorla mübarizə, girov xilasetmə əməliyyatları üzrə ixtisaslaşıb. 1957-ci ildə yaradılıb. Tələb edilən ən mühüm meyarlar mükəmməl fiziki hazırlıq və zehni bacarıqların yüksək olmasıdır.

**"SAS"** - Böyük Britaniya xüsusi təyinatlı dəstəsi 1941-ci ildə təşkil olunub. "Special Air Service" İkinci Dünya müharibəsi, Malaya təhlükəsi, İndoneziya-Malayziya qarşıdurmaları, Şimali İrlandiya problemi, Falkland döyüşü, İraq və Əfqanıstan müharibələrində xüsusi tapşırıqlar yerinə yetirib. Dəstənin ayrıca snayper qrupu gizli hücumlarıyla məşhurdur. "SAS" mənsubları Mİ 5 və Mİ 6-da əks-kəşfiyyatdan dərs alırlar.

**"Delta Force"** - Terrorla mübarizə sahəsində ixtisaslaşan qrup ABŞ-ın ən mühüm elitar dəstələrindən biridir. 1977-ci ildə yaradılıb. "Yaşıl Beretlilər" və ya "Rangers" kimi də tanınır. Dəstə ABŞ-ın iki əsas antiterror qrupundan biridir. Əsas vəzifəsi antiterror, üsyan və dövlətlərarası vasitəçilik əməliyyatlarının həyata keçirilməsindən ibarətdir. Həmçinin bir çox gizli tapşırıqları - girovların xilas edilməsini, basqınları uğurla həyata keçirir.

**"SSG"** - Pakistan ordusunun xüsusi təyinatlı dəstəsi. İngiltərənin SAS və ABŞ-ın bir sıra xüsusi təyinatlı dəstələrinin bazasında 1956-cı ildə qurulub. Təxminən 10 tabordan (8000-9000 şəxsi heyət) ibarət olduğu ehtimal olunur.

**"Alfa qrupu"** - Rusiyaya məxsus bu dəstə sülh və müharibə şəraitində kəşfiyyat aparmaq və xüsusi tapşırıqları yerinə yetirmək üçün yaradılıb. 1979-cu ildə SSRİ DTK-dan aldığı əmrlə o zamanki Əfqanıstan Prezidenti Hafizullah Əminə qarşı uğurlu əməliyyat həyata keçirib. İngiltərəyə qaçan QRU agenti Vladimir Rezunun dediyinə görə, hələ 1970-1980-ci illərdə dəstənin 30 minə yaxın üzvü olub.

Bu gün öz gücü və texniki potensialına, təcrübəsinə görə sayılıb-seçilənlər sırasına daxil olan Azərbaycan Ordusunun, eləcə də hüquq-mühafizə qurumlarının xüsusi təyinatlı dəstələri mövcuddur. Azərbaycan xüsusi




təyinatlılarının döyüş qabiliyyəti və hazırlığı, həmçinin təcrübəsi, peşəkarlığı yüksək qiymətləndirilir.

Daxili İşlər Nazirliyinin tərkibində fəaliyyət göstərən **"Aslanlar"** yüksək peşəkarlığı ilə seçilir və qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlir. Əlahiddə Çevik Polis Alayının Xüsusi Təyinatlı Bölüyünün və Daxili Qoşunların xüsusi təyinatlılarının əsas vəzifəsi ictimai asayişi pozmağa çalışan mütəşəkkil qruplaşmaları zərərsizləşdirmək, cinayətkar cəhdlərin qarşısını qətiyyətlə almaqdır.

*Ə.Teymur*

# AVROPANIN ƏN GÜCLÜLƏRİ SIRASINDA

**Mayın 10-12-də Rusiyanın Sankt-Peterburq şəhərində Pauerliftinq üzrə Avropa çempionatı keçirilib. Qitənin 15 ölkəsindən 300-dən çox idmançının qələbə uğrunda mübarizə apardığı yarışda milli komandamız təcrübəli idmançılarla təmsil olunub.**

Ölkəmizin yığma komandasının tərkibində təmsil olunan Bakı Şəhər Baş Polis İdarəsinin əməkdaşı, polis baş leytenantı Ədilə Qurbanova yarışın favoritləri sırasında olub.

Qadınlar arasında ştanqı qurşağadək dartma (deadlift) hərəkətində çıxış edən təmsilçimiz




ümumilikdə 152,5 kiloqram ağırlığı qaldıraraq yarışın qızıl medalını qazanıb.

Xatırladaq ki, polis baş leytenantı Ədilə Qurbanova idmanın karate və pauerliftinq növləri ilə məşğul olur. Səkkizqat respublika çempionu olan təmsilçimiz 2 dəfə dünya kubokunun sahibidir. Beynəlxalq turnirlərdə dəfələrlə fəxri kürsünün ilk pilləsinə yüksəlib. Pauerliftinqdə 3 dəfə respublika birincisidir.

*Zeyni Hüseynov,*
*polis serjantı*

# MARAQ DÜNYASI

### NAMƏLUM İNSAN NÖVÜ AŞKAR EDİLİB

Filippində alimlər naməlum insan növünün qalıqlarını aşkar ediblər.

Bildirilir ki, Filippinin Luson adasındakı Kalyao mağarasında üç şəxsə məxsus olmuş barmaq və bud sümüklərinin, həmçinin dişlərin qalıqları aşkar edilib. Onların yaşının təqribən 50-67 min il arası olduğu qeyd edilir.

Tədqiqatçıların rəyinə görə, tapılan fraqmentlərin morfoloji əlamətlərinin məcmusu deməyə əsas verir ki, bu qalıqlar indiyədək məlum olan insan növlərinə, o cümlədən nə "Homo floresiensis"ə, nə də "Homo sapiens"ə aid deyil. Bu qalıqlar tamamilə yeni insan növünə aiddir və onun tapıldığı Luson adasının adına uyğun olaraq "Homo luzonensis" adlandırılması qərara alınıb.

Alimlərin rəyinə görə, yeni insan növünün tapılması Afrikadan kənarda onun müxtəlif növlərinin olduğunu deməyə əsas verir və təkamülün çox mürəkkəb xarakterini təsdiq edir.

### ANADOLUDAN GƏLİBLƏRMİŞ

İngiltərədə aparılan DNT tədqiqatının nəticələri göstərib ki, bu ölkənin ən məşhur tarixi abidəsi olan "Stonehenge"i Anadoludan gələnlər tikiblər.

Londonda tədqiqat aparan alimlər arxeoloji qazıntılar zamanı neolit dövründə (e.ə. 5500-800-ci illər) İngiltərədə yaşamış insanların əcdadlərinin qalıqlarının DNT analizlərini Avropanın digər yerlərində onların müasirlərinin aşkar edilmiş analoji tapıntıları ilə müqayisə ediblər. Məlum olub ki, həmin dövrdə adada məskunlaşmış insanlar e.ə. 4000-ci ildə Anadoludan gəliblər. Alimlər bildirirlər ki, o vaxtlar Avropaya köç edən bu insanlar "köhnə qitə"də kənd təsərrüfatının əsasını qoyublar. Onların bir qrupu Dunay çayı boyunca Mərkəzi Avropaya, digər hissəsi isə Aralıq dənizi ilə qərbə yollanıblar. Əvvəlcə Pireney yarımadasına gələn bu insanlar sonradan Fransaya, oradan isə Britaniya və Uelsə yerləşiblər. Anadolu insanının DNT nümunələri Şotlandiyanın qərbində tapılmış insan sümüklərində də aşkar olunub.

Bildirilir ki, neolit dövrü əkinçi xalqlarının bu ərazilərə köç etməsindən sonra yerli ovçu britaniyalıların izlərinə rast gəlmək olmur. Onun sözlərinə görə, neolit dövründə həmin qəbilələr sayca az olduğu üçün assimilyasiyaya məruz qalıblar.

### NEFTLƏ QİDALANAN BAKTERİYALAR

"East Anglia" Universitetinin (UEA) alimləri okean çökəkliyində mikroskopik canlılar haqqında yeni məlumatlar əldə ediblər. Xəbər verilir ki, dünyanın ən dərin çökəkliyi olan Marian çökəkliyi alim və tədqiqatçıların diqqətini cəlb edir. Tədqiqat rəhbərlərindən olan Xiao-Hua Zhang deyib: "Biz Mars barədə dənizin ən dərin hissələrindən daha çox məlumatlıyıq".

UEA-nın alimi Jonathan Todd Marian çökəkliyində karbohidrogenlərlə qidalanan bakteriyalar qrupu aşkarladıqlarını bildirib. Onun sözlərinə görə, karbohidrogenlər hidrogen və karbon atomlarından ibarətdir. Bu, xam neft və təbii qazda da mövcuddur. Həmin mikroorqanizmlər neftlə qidalanaraq yaşayırlar.

Alimlərin fikrincə, 6 kilometr dərinlikdə aşkarlanan bu bakteriyalar okeanın daha dərin hissələrində də mövcuddur.

*Ruhiyyə Əliyeva*

# DÖNÜŞÜ "MÖHTƏŞƏM" OLDU

**Məhərrəm Beyləqanda hərbi xidmətini başa vurduqdan sonra doğulduğu Qazax rayonuna qayıtdı. Bunu eşidən qohum-əqrəba, qonum-qonşu gözaydınlığına gəldi. Hər kəs də: "Əsgəri görməyə gəlmişik",-deyib qulpundan çıxanı cibinə qoydu. Bir müddət belə davam etdi. Lakin yavaş-yavaş həm gəlib-gedən, həm də cibxərcliyi qurtardı.**



Məktəbi zəif oxuyan Məhərrəm doğru-düzgün bir peşə sahibi deyildi. Dost-tanışı öz halal zəhmətiylə işləyib, dolanışığını təmin etsə də o hələ "Ver yeyim, ört yatım, gözlə canım çıxmasın" xülyasındaydı. Elə bu ovqatla da xeyli götür-qoydan sonra əsgər yoldaşlarını görmək bəhanəsilə Beyləqana döndü.

Hələ xidmətdə olarkən hərbi hissənin yaxınlığındakı mağaza diqqətini çəkmişdi. Ay ərzində müştərilərinin gündəlik ehtiyaclarını qarşılayan mağaza sahibi məvacib veriləndə borclarını geri alırdı.

Düşündüyü planı götür-qoy edə-edə mağazaya yaxınlaşdı, açıq qapıdan içəri bərkdən səsləndi:

*-Salam qardaş, necəsən?*

Elə o cür də cavab gəldi:

*-Çox sağ ol, xoş gəlmisən. Deyəsən, dostların üçün darıxmısan.*

*-Hə, dedim, gəlib görüm onları.*

Mağaza sahibi Məmmədhəsən onu yaxşı tanıdığından içəri dəvət etdi. Qonaqdı, uzaq yol gəlib deyib, hörmət əlaməti olaraq bir fincan çay da süzdü. Sonra da üzürxahlıq edib: "Məni bağışla, özün bilirsən ki, ayın axırı gəlib-gedən çox olur,"-dedi.

*-İşində ol...*

Mağaza sahibinin başı alış-verişə elə qarışmışdı ki, onun hərəkətlərinə fikir belə vermirdi. Çağrılmamış qonaqsa öz işindəydi. Kassanın yerini dəqiq bilən Məhərrəm fürsəti fövtə verməyib oradakı olan 5400 manatı götürüb cibinə qoydu. Bir az sonra isə siqaret çəkmək bəhanəsilə çölə çıxıb uzaqlaşdı və bir qədər aralıda ilk gələn maşına əl qaldırdı.

Onun belə apar-topar getməsi Məmmədhəsəni təəccübləndirdi. Amma olanları bir az sonra, kassadan pul götürməyə gələndə anladı. Hövlənək özünü küçəyə atsa da gec idi.

Mobil telefonu ilə tez polisə zəng etdi. Hadisə barədə Növbətçi Hissədən Beyləqan RPŞ-nin rəisi, polis polkovnik-leytenantı Rəşid Piriyevə məlumat verildi. Vaxt itirmək olmazdı. Əməliyyat işləri üzrə rəis müavini, polis polkovnik-leytenantı Rövşən Mirəliyevin rəhbərlik etdiyi əməliyyat-axtarış qrupu rayonun bütün giriş-çıxışını, eləcə də hadisə baş verən ərazini nəzarətə götürdü.

İntensiv keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində hadisəni törətməkdə şübhəli bilinən Məhərrəm Qurbanov əməlinin dadını çıxarmamış yaxalanıb polisə gətirildi. Şahidlərin iştirakı ilə onun üzərinə baxış keçiriləndə şəxsi istifadəsindən artıq miqdarda narkotik vasitə, qurudulmuş marixuana və tiryək də aşkarlandı.

RPŞ-nin rəisi Rəşid Piriyevdən onu da öyrəndik ki, bu uğurla həyata keçirilən tədbirlərdən yalnız biridir. Belə ki, ilin geridə qoyduğumuz müddəti ərzində 66 cinayətin 92,9 faizinin açılması təmin edilib. O cümlədən, ağır və xüsusilə ağır cinayətlərin 100, qeyri-aşkar şəraitdə baş verənlərin 85,2, mülkiyyət əleyhinə törədilənlər isə 88,8 faiz açılmışdır. Narkotiklə bağlı 17 fakt aşkarlanmış, qanunsuz dövriyyədən 1,5 kiloqrama yaxın narkotik vasitə çıxarılmışdır. Axtarılan 21 təqsirləndirilən şəxsdən 14-ü tutulmuşdur ki, onlardan da 7-si keçmiş illərdən axtarışdaydı. Xəbərsiz itkin düşən 10 nəfərdən 9-nun yeri müəyyən edilmişdir.

*Çingiz Şıxverdiyev, polis polkovnik-leytenantı*

**2019-cu ilin II yarısı üçün "Mübariz keşikdə"yə-öz qəzetinizə abunə olmağa tələsin!**

# XİLASKARLIQ MİSSİYASI

## Belə də olur...

***Ötən gün şahidi olduğum hadisədən çox təsirləndim. Həm də əmin oldum ki, dünyanın harasında olursa-olsun, tanımadığın birinə əl tutmaq, kömək etmək nə qədər alicənab işdir, vacibdir, savabdır. Hərçənd aramızda eləleri tapılır ki, özü köməyə tələsmir, könül sevindirmir, üstəlik, belə nəcib əməl sahiblərini qınayır da: "Şikəst, əlil deyilsə, əqli cəhətdən sağlamdırsa, ona yardım düşmür. Səndən də, məndən də yaxşı yaşayır, çoxu dələduz, fırıldaqçıdır",- deyənlər də olur.***

***Xalqımız səxavətlidir, əliaçıqdır, tikəsini böləndir. Bu, bizim fitrətimizdə var. Mərhəmət hissi isə insanın peşəsinə, ixtisasına, sosial statusuna, intellektual səviyyəsinə, yaşayış tərzinə baxmır...***

Evimizin yaxınlığındakı marketin yanından keçəndə yaşlı bir kişinin qadınla söhbəti diqqətimi çəkdi. Uzaqdan baxanda adama elə gəlirdi ki, mübahisə edirlər. Kişi danışır, qucağında bələk olan qadınsa başını aşağı salıb dinməzcə yerə baxırdı. Yaşlı kişinin səsinə körpə heç qımıldamır, mürgüləyirdi...

Onların söhbətinə qulaq asa biləcək məsafədə dayandım. İndi qadın astadan deyirdi: "Vallah, dilənçi deyiləm. Ərim bizi atıb gedib. Sonra da eşitdim ki, dava-dalaş üstündə tutulub. Qohumlarımız da bizə sahib çıxmırlar. Doqquz aylıq körpəyə uşaq yeməyi almağa imkanım yoxdu. Hara da iş üçün gedirəm, mənə bir cür baxırlar..."



Qadın kimsəsizlikdən, əlacsızlıqdan ona-buna əl açmağa məcbur olmuşdu. Həmin qadın dəsmalını çıxarıb gözlərini sildi və dükana daxil oldu. Çox çəkmədi əlidolu qayıtmağı.

Qadın onu görəndə körpəsini qucağına daha bərk-bərk sıxıb göz yaşlarına hakim ola bilmədi. O, bu an dünyanın ən xoşbəxti idi. Sevincdən və kədərdən axan göz yaşları biri-birinə qarışmışdı. Bəlkə də qanadları olsaydı, uçardı. Yuxudan oyanan körpə isə acından için-için ağlayırdı.

Birdən qadın sakit səslə və utana-utana: "Müəllim, bu çox bahadı, həm qızım buna öyrəşməyib, onu yemər",- dedi.

Kişi gülümsəyib, yenidən marketə qayıtdı. Uşaq üçün bez də alıb yanında bir qızla bayıra çıxdı. Xanım marketin meneceri imiş.

-Nə bacarırsan?

Uşaqlı qadın onun bu sualından diksinən kimi oldu.

-Savadım yoxdu. Amma xadiməlik edərəm.

Qız gülümsədi: "Eybi yox, əsas odur ki, sən bizimlə işlə, evinə, balalarına bir tikə çörək apar. Sabah şəxsiyyət vəsiqəni özünlə götür və mənə yaxınlaş. Səni müdiriyyətə təqdim edəcəyəm..."

Qadın "Çox sağ olun",- deyib uzaqlaşdı"

Kişi ilə maqazinin yetkilisi xeyli biri-birinə baxdı. Və həmin xanım dilləndi: "Üzr istəyirəm, siz onun tanışısınız, yoxsa?"

Yaşlı kişi gülümsədi: "Mən polis veteranıyam. Bir neçə ay olar ki, təqaüdə çıxmışam".

İkisi də susdu...

Əlavə şərhə ehtiyac yox idi. Gördüyüm bu mənzərə məni də kövrəltmişdi. Polis tək xidmətdə olduğu dövrdə yox, təqaüddə də xilaskarlıq missiyasını yerinə yetirirdi...

*Ruslan Vəliyev, polis leytenantı*

# ÜZ GÜLÜR, QƏLB SEVİNİR

**Nardaran sakini 79 yaşlı Mərziyə Kərimovanın DİN-ə ünvanladığı məktubu oxuyub, bir kənara qoydum. Düşündüm... Nardaran kəndinin 4-5 il bundan öncəki mənzərəsi canlandı gözlərimin önündə. Dini fanatizmin "əsirinə" çevrilmişdi bu kənd. Hara baxırdınsa gözlərin ancaq qara rəngə bürünmüş həyət-baca, qapı-pəncərə, daş-divar görürdü...**

Sanki, günəş şüaları da burda qara rəngə boyanmışdı. Böyüməkdə olan uşaqların gələcəyi də sual altında idi. Müasir Azərbaycanda XIX əsrin adət-ənənələrini formalaşdırmağa çalışan, özlərini tanımayan "özgələrinin uşaqları" din pərdəsi altında dövlətə, dövlətçiliyə qarşı çağırışlarla adamların beynini zəhərləyir, onlara şəriət qanunları ilə idarə olunan "cənnət" vəd edirdilər...

Dünyanın gəlişinə-gedişinə şahidlik edən Mərziyə nənə Nardaranın bu günündən həvəslə danışır. Yazır ki, indi artıq kənddə sabitlik, əmin-amanlıq var. Hər tərəf abadlaşıb, gözəlləşib. İnfrastruktur müasirləşib. 1941-ci il Böyük Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə abidənin qoyulmasını isə xüsusi sevinc hissi ilə qeyd edir ağbirçəyimiz. Çünki onun atası da faşizmlə müharibədə həlak olub.

Əməyi, zəhməti olan hər kəsə minnətdarlığını ifadə edir. Qəsəbənin güzəranından razılıqla yazan Mərziyə ana yaradılan, qorunan əmin-amanlığın Azərbaycan Polisinin də qətiyyəti, peşəkarlığı sayəsində əldə olunduğunu vurğulayır. Bildirir ki, daxili işlər orqanlarının əməkdaşları gecə-gündüz, qışın soyuğunda, qarda, yağışda, yayın qızmarında indi gözəlliyi ilə göz oxşayan Nardaranı "göz bəbəyi" kimi qoruyur, asayişin keşiyində ayıq-sayıq dayanırlar.

Sonda məktubu kiril əlifbası ilə yazdığına görə nənəmiz üzürxahlıq etməyi də unutmur.

Əziz ana, bu dərd deyil, günaha yazılmır. Əsl dərd verənlər, günah, cinayət işlədənlər utansınlar, sizlərdən örnək alıb, bundan sonra insan kimi yaşamağa, adam olmağa səy eləsinlər...

*Teymur Əlizadə, polis kapitanı*

# ELAN

2019-cu il iyun ayının 8-də saat 8:00-da Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Ramil Usubov tərəfindən Gəncə, Göygöl, Samux, Kəlbəcər, Şəmkir, Ağstafa, Tovuz, Gədəbəy, Qazax, Daşkəsən, Goranboy, Xocalı və Naftalan şəhər, rayon polis orqanlarında vakant (103 ştat) olan Post-Patrul Xidmətinin polis nəfəri (gecə xidməti) vəzifələrində xidmətə qəbulla bağlı DİN-in Daxili Qoşunlarının Gəncə şəhərində yerləşən hərbi hissəsində sıra baxışı keçiriləcək. Sıra baxışında yalnız qeyd olunan rayonlarda yaşayış yeri üzrə daimi qeydiyyatda olan və yaşayan, aşağıdakı şərtlərə cavab verən şəxslər iştirak edə bilərlər:

- ali və ya orta-ixtisas, yaxud tam orta təhsilli, yaşı 20-dən 25-dək, boyu 180 santimetrdən hündür, idman cüssəli, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, əvvəllər özü və yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları iştirak edə bilərlər.

Sıra baxışına gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

Həmin vəzifələrdə əmək funksiyalarının spesifikliyini, yüksək fiziki və psixoloji gərginliklə bağlı olması, eləcə də xidmətin növbəli, bir çox hallarda əsas iş vaxtından əlavə müddətdə aparılacağı baxımından müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi, fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş qaydada yoxlanılacaq.

Kompüter avadanlıqları ilə işləmək qabiliyyətinə malik, ali təhsilli və xarici dillərdən birini (əsasən, ingilis dili) sərbəst bilən vətəndaşlara üstünlük veriləcək.

Əlavə olaraq nəzərə çatdırılır ki, boyu 180 santimetrdən aşağı olan və müsabiqənin digər şərtlərinə uyğun gəlməyən namizədlər keçid məntəqəsində yoxlanılaraq sıra baxışına iştiraka buraxılmayacaqlar.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları: (012)-590-97-52; (012)-590-92-54; (012)-590-93-45; (012)-590-92-37.**

*Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi*

# Başçəkmə keçirilib

**Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) Milli Preventiv Qrupunun (MPQ) üzvləri tərəfindən Nərimanov Rayon Polis İdarəsinin Müvəqqəti saxlama yerinə başçəkmə həyata keçirilib.**

Başçəkmə çərçivəsində saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan sənədlər araşdırılıb.

Eyni zamanda, kameralara baxışlar keçirilib, qidalanma, tibbi yardım, gəzinti, görüş, telefon danışıqları, kameradan çıxarılma və sovqat ilə bağlı sənədləşmə yoxlanılıb, mövcud ehtiyaclar öyrənilib.

Başçəkmə zamanı MSY-də saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması məqsədilə MPQ üzvləri tərəfindən saxlanılan şəxslər fərdi qaydada qəbul edilib, müraciətləri dinlənilib, hər birinə Ombudsmanın səlahiyyətləri izah olunub və hüquqi məsləhətlər verilib, bir sıra müraciətlər isə yerində araşdırılaraq təmin edilib.

# DÜNYAYA PƏNCƏRƏ

ABŞ Prezidenti Donald Tramp polisləri qətlə yetirənlər haqda edam cəzası çıxarılmasını istəyib. O, bu barədə vəzifələrini icra edərkən ölən hüquq-mühafizə orqanları əməkdaşlarının xatirəsinə həsr edilən mərasimdə çıxışı zamanı deyib: "Bizim polislərimizə hücum bitməlidir, elə indicə buna son qoyulmalıdır. Hesab edirik ki, polisi öldürən cinayətkarlara vaxt itirmədən məhkəmə yolu ilə ölüm hökmü verilməlidir. Bu, ədalətli, lakin sürətli proses olmalıdır".

*****

***Böyük Britaniyanın yol təhlükəsizliyi ilə bağlı xəbərdarlıq rəmzlərinə uşaqlar üçün "Disney" qəhrəmanlarının təsvirləri əlavə ediləcək. Kampaniya "Disney Junior" və yol hərəkəti təhlükəsizliyi təşkilatı olan "Brake" arasında əməkdaşlıq şəraitində həyata keçirilir.***

***Britaniyanın rəsmi yol işarəsi dizayneri Marqaret Kelvert "Disney"in Mikki Maus, Mini Maus və Donald Dak kimi məşhur simvollarının yeni dizaynlarını hazırlayıb və bildirib ki, bu, valideynləri və uşaqları yollarda təhlükəsiz hərəkətə təşviq etməyi nəzərdə tutan kampaniyanın bir hissəsidir.***

***Məktəblərin və uşaq bağçalarının ətrafına yerləşdiriləcək təsvirlərin balacaların yol hərəkəti qaydalarına əməl etmələrinə töhfə verəcək.***

*****

Fransada polisin saxladığı şəxslərin sayı rekord həddə çatıb. Bu barədə Ədliyyə Nazirliyi məlumat yayıb.

Aprelin 1-nə ölkədə polisin saxladığı şəxslərin sayı 71.828 nəfərə çatıb. Bunların 50.976 nəfərinə həbs cəzası verilib. Ümumiyyətlə, 2011-ci ildən Fransada tutulan şəxslərin sayı artır. Növbəti beş ildə cəzaçəkmə məntəqələrində 7 min əlavə yerin yaradılması nəzərdə tutulur.

*****

***Dubay polisi Birləşmiş Ərəb Əmirliklərinin tarixində narkotiklərə qarşı mübarizə çərçivəsində "Stalker" adlı ən iri əməliyyat keçirib. Narkotiklərə qarşı mübarizə üzrə baş idarənin apardığı əməliyyat nəticəsində narkotik qaçaqmalçılığı ilə məşğul olan iki beynəlxalq cinayətkar dəstə saxlanılıb, narkotik vasitələrin daşınma yolları ifşa edilib.***

***Dubay polisinin baş komandanı, general-mayor Abdulla Xəlifə Əl-Marrinin sözlərinə görə, əməliyyat zamanı polis əməkdaşları tərəfindən 365 kiloqram heroin, metamfetamin və həşiş müsadirə edilib ki, bunların da bazar qiyməti 278 milyon dirhəm dəyərləndirilir.***

***Əl-Marri qeyd edib ki, uğurlu əməliyyat nəticəsində narkotik vasitələrin qaçaqmalçılığı ilə məşğul olan hər iki cinayətkar dəstənin 16 üzvü şübhəli şəxs qismində saxlanılıb.***

*****

Meksika Prezidenti Andres Manuel Lopes Obrador yeni Milli İnkişaf Planını elan edib. Bu sənəddə narkotikləri leqallaşdırmağa çağırış da öz əksini tapıb. Planda həmçinin qeyd edilir ki, Meksika narkotiklər haqqında milli qanunvericilikdə islahatlar aparmağı və Birləşmiş Ştatlarda da analoji qanunlar qəbul edilməsi barədə danışıqlar aparmağı nəzərdə tutur.

Obradorun planına əsasən, qeyri-qanuni narkotiklər leqallaşdırılacaq və onlara qarşı mübarizəyə sərf edilən vəsaitlər müalicə proqramlarının maliyyələşdirilməsinə yönəldiləcək. Prezident bildirib ki, narkotiklərə qarşı illər boyu aparılan beynəlxalq müharibə böyük faciələrə və neçə-neçə insanın həyatının itirilməsinə səbəb olub və müsbət nəticə verməyib. Obrador bu sahədə yeni strategiya qəbul edilməsi barədə dünya birliyi ilə, o cümlədən ABŞ-la danışıqlar aparmağa çağırıb. Onun fikrincə, bu problemin həllinin yeganə real yolu narkotiklərin dekriminallaşdırılmasıdır.

*C.Natiq*

MÜBARİZ KEŞİKDƏ

qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.

Redaktor
CAVİD XASPOLADOV

Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9.978

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30

Çapa imzalanmışdır 18:00